Şagirdin adı,soyadı:
Doğru cavablar:
Səhv cavablar:
Ümumi bal və qiymət:

1. ”Əsgər məktubu” əsəri ilə bağlı hansı fikir yanlışdır (15 bal) ?

A) Şeirində şair təkcə ürəyinin səsini deyil, gənc əsgərin munis duyğularını, hiss və düşüncələrini də misralara köçürmüşdür.

B) Şairin bu şeirində vətənin müdafiəsində dayanan ,onu göz bəbəyi kimi qoruyan igid əsgərlərin bədii obrazı yaradılmışdır.

C) Əsər qəhrəmanlıq himni kimi səslənir.

D) Əsərdə şair vətənimizin tarixi keçmişi, xüsusilə Qarabağla bağlı məsələləri işıqlandırmışdır.

E) Müəllif əsgər məktubunu Vətənin rəmzi kimi mənalandırır.

2. Əsərin ideyası nədir (“Əsgər məktubu” (5 bal)) ?

A) Azadlıq mübarizəsinə qalxmaq lazımdır.

B) Əsgər həyatı adi insan həyatından fərqlənmir.

C) Vətənimizin əmin əllərdədir və igidlərimiz tərəfindən inamla qorunur.

D) Ölkəmizin təbiəti əsrarəngizdir.

E) Nəğmə əsgərlərimizi canlandırır.

3. *“Şair düşünür ki, əsgərə söz məhəbbətinin yetişməsi üçün sözlərin .......... olmalıdır”*

Nöqtələrin yerinə hansı söz yazılsa, doğru olar (“Əsgər məktubu” (5 bal)) ?

A) Vətən

B) Nəğməli

C) Gənc

D) Əsgər

E) Qızıl

4. *Əsgər məktubunda torpaq göyərir,*
*Meşələr uzanır ufüqlərəcən.*
*Əsgər məktubunda bir dağ göyərir*
*– Ətək də Vətəndir, zirvə də Vətən.*

Verilən bəndin təhlilinə aid deyil (“Əsgər məktubu” (10 bal)) :

A) Əsgər məktubu torpağa bənzədilir.

B) Əsgər məktubu dağa bənzədilir.

C) İkinci misrada inversiya var.

D) Dağın ətəyi ilə zirvəsində olan Vətən fərqli ölkələrdir.

E) Sonuncu misradakı təkrir yoxdur.

5. Uyğunluğu müəyyən edin (“Əsgər məktubu” (15 bal) :

| ***Doğrudur:*** | ***Yanlışdır:*** |
|---|---|
| 1. Şeirin son bəndində şairin adına rast gəlinir. | 3. Məzmuna görə, əsgər tüfəngi nəğməsiz darıxır. |
| 2. Lirik qəhrəman əsgər məktubunu tərifçinin tərifindən üstün tutur. | 4. Lirik qəhrəmana gələn məktub sərhədçi əsgərdən deyil. |

A) 1,2 B) 2,3 C) 1,4 D) 2,4
E) 1,3

6.  işarəsinin yerinə yazılacaq fikri seçin (10 bal) :

| | |
|---|---|
| “Ananın öyüdü” .S.Vurğun |  |
| “Əsgər məktubu”.M.Araz | |

A) Epik növdə yazılıb.

B) Təbiət mövzusunda yazılmayıb.

C) Əsərdə döyüşə yola salınan əsgər obrazı var.

D) Şair əsgərdən alınan məktubu tərifləyir.

E) Qoca ana oğluna nəsihət verir.

7. *Bir nəğmə əsgərin dodaqlarında,*
*Sərhəd küləyinə həmsöhbət olar.*

Verilən misralarda hansı bədii təsvir vasitəsi işlənib (10 bal) ?

A) Təşbeh

B) Epitet

C) Metafor

D) İnversiya

E) Simvol

8. Əsgər obrazına müəllifin münasibətində hansı fikirlər yanlışdır (10 bal (“Əsgər məktubu”)) ?

1. Əsgəri igid, qorxmaz biri kimi təqdim edir.
2. Əsgərin yazdığı məktubu o qədər də sevmir.
3. Əsgərin evi üçün nigaran olması şairi də narahat edir.
4. Əsgəri vətənpərvər insan kimi təqdim edir.
5. Əsgərə münasibəti birmənalı deyil.

A) 2,4,5 B) 3,4,5 C) 2,3,5 D) 1,2,3
E) 1,2,5

9. “Əsgər məktubu” şeiri ilə bağlı hansı fikir doğrudur (10 bal) ?

A) Əsgər vətəni inamla qorumur.

B) Əsgər tüfəngi nəğmə ilə darıxır.

C) Şair şeiri cəsarət adlandırır.

D) Məzmuna görə, şairin əsgərlərdən aldığı məktublar çox zaman kədərli olur.

E) Şeirdə bədii sual yoxdur.

10. “Əsgər məktubu” şeirindən verilən hansı misranın məzmunu qarşısında verilən misranın məzmunu ilə ziddiyyət təşkil edir (10 bal) ?

| | | |
|---|---|---|
| A) | Bir əsgər qəlbində qopan zümzümə | Bir Vətən daşını isidəcəkdir. |
| B) | Bir əsgər yazır ki, “sərhədçiyəm mən. | Əlimdə tüfəngdir, dilimdə şeir. |
| C) | Əsgər məktubunda bir dağ göyərir – | Ətək də Vətəndir, zirvə də Vətən. |
| D) | Əsgər məktubunun cavabı çətin, | Əsgər məktubunun cavabı asan. |
| E) | Əsgər məktubları alıram hərdən, | Məhəbbət, cəsarət, dəyanət dolu. |

CAVABLAR

| | | | | |
|---|---|---|---|---|
| 1D | 2C | 3D | 4D | 5D |
| 6B | 7C | 8C | 9E | 10D |